



UOT 94 (479.24)



# Metropoliten İncəsənət Muzeyində Ağqoyunlu mədəniyyət nümunələri

**_Sədulla Nuriyev_**
_e-mail: nuriyev_31@mail.ru_

**_Açar sözlər:_** _Azərbaycan, Ağqoyunlu, Bayandurlu, mədəniyyət, Metropoliten_



512850

Nyu-York şəhərində yerləşən Metropoliten İncəsənət muzeyi 1870-ci ildə yaranıb. İlk vaxtlar ayrı-ayrı adamların vəsaiti və zəngin iş adamlarının könüllü ianələri hesabına fəaliyyət göstərib. İş adamlarının arasında milyonçular Morqan, Rokfeller, Ceykob Rocers, Qoras Xevmeyer və başqaları var idi. Muzeyə yardım edən mesenatlardan birincisi Ceykob Rocers olub. 1901-ci ildə o muzeyə böyük məbləğ, 4,5 milyon dollar bağışlayıb. Bu pula nadir şəkillər və kitablar alınır. İkinci mesenat Ketrin Vulf adlı qadın olub. O, həm də muzeyi təsis edənlərdən idi. Xanım Vulf görkəmli rəssamların 143 ədəd rəsm əsərlərindən ibarət olan kolleksiyasını muzeyə bağışlayıb. 1917-ci ildə Con Morqan 20 il ərzində yığdığı 5500 rəsm əsərini muzeyin fonduna verib.

1917-ci ildə muzeyin yaranmasında xidməti olan sahibkarlardan biri Ayzek Fletçer vəfat edəndən sonra, onun vəsiyyətinə əsasən, sahib olduğu tətbiqi-sənət nümunələrindən, rəsmlərdən və şəkillərdən ibarət kolleksiya muzeyə bağışlanıb. Muzeyin Afrika, Yaxın Şərq mədəniyyəti, Qədim Dövr, Qrafika və s kimi şöbələrində 3 milyona yaxın eksponat saxlanılır. Bunların arasında qədim Misir, Yunanıstan, Roma mədəniyyətinə və Yaxın Şərq ölkələrinə aid olan eksponatlar üstünlük təşkil edir. Buradakı islam mədəniyyəti nümunələri kolleksiyası ən böyük kolleksiya hesab edilir. Uzaq Şərq ölkələri şöbəsində Çin dövlətinə məxsus rəsm əsərləri, heykəltəraşlıq nümunələri,gümüş və saxsı qablar nümayiş olunur.

Qədim Misir mədəniyyəti şöbəsində sarkofaqlar və mumiyalar (b.e.ə I minillik), məşhur Sfinks heykəlindən, sərdabələrdən götürülmüş bəzək əşyaları, ağacdan hazırlanmış mebel, müxtəlif ayaqqabı, geyim əşyaları və s. nümayiş olunur. Qədim dünya mədəniyyəti şöbəsində Yunanıstan və Roma, həmçinin Kipr adasından götürülmüş eksponatlar sərgilənir. Buraya daha çox heykəltəraşlıq əsərləri daxildir. Məsələn, imperator Konstantinin büstü, yaralı amazonka heykəli çoxlu ziyarətçi cəlb edən eksponatlardır.

Silah nümunələri saxlanılan şöbədə cəngavər dəbilqələri, müxtəlif növ qılınclar və odlu silah növləri təqdim olunur. Qrafika şöbəsi ziyarətçiləri Avropanın məşhur rəssamları Leonardo da Vinçi, Buonarroti, Rafael Santi, Mikelancelo, Rembrandt və başqalarının rəsm əsərləri ilə tanış edir. Musiqi alətləri şöbəsində isə dünyanın bütün qitələrini təmsil edən 4000 müxtəlif musiqi aləti saxlanılır. Saxlanılan alətlərdən ən qədiminin 1200 yaşı var.

Təqdim olunan sənətkarlıq nümunələri Bayandurilər sülaləsinə aiddir. Təəssüflər olsun ki, Qərb dünyası Azərbaycan imperiyasını idarə etmiş bu türkmənşəli sülaləni Azərbaycana aid etmir. "Türkman" adı altında təqdim edilən Ağqoyunlular ictimaiyyətə qeyri-Azərbaycan tayfası kimi təqdim edilir.

Metropoliten muzeyində Ağqoyunlularla bağlı axtarış edərkən 10 mədəniyyət nümunəsi ilə rastlaşdıq.







Lövhələri olan zirehli geyim
Tarix: XV-XVI əsrlər
Mədəniyyət: İran və Türkiyə (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: polad, gümüş, qızıl, dəri, mis
Təsnifat: İnsan üçün zirehli geyim
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.456b (3)



1478-ci ildə Ağqoyunlu (Azərbaycan – S.N.) ərazisində olmuş Venesiya diplomatının yazdığına görə, bu cür – qızıl və gümüşün qatışığından hazırlanmış zirehlər, güman ki, bütün Şərqi Anadoluda, Persiya və Qafqaz ərazisində istifadə edilirdi. Zirehin üzərində "Həmd olsun Allaha ... Sultan ... Kral (Padşah – S.N.)". Sol tərəfdən ön hissədə aşağı lövhəciyin üzərində "Sultan İbrahim", sağ tərəfdən ön hissədə aşağı lövhəciyin üzərində "çar, xan" yazılıb. "Çar" sözü türk dilində olmadığından bunun muzey əməkdaşları tərəfindən verildiyi məlum məsələdir. Ola bilsin ki, orada "hakim, xan" sözləri yazılıb. Bu cür yazılara bəzi digər Ağqoyunlu baş geyimlərində də rast gəlinir (məsələn, avadanlıq №-si 04.3.209, 0,214, 0,432). Bu zireh döyüşdə və mərasimlərdə istifadə edilmək üçün nəzərdə tutulub. Zireh rəng baxımından zəngindir (3).



Bu cür dəbilqələr adətən "çalmaşəkilli" dəbilqə adlanır; çünki dəbilqənin formasına diqqətlə baxsaq, onun çalmaya oxşadığını görərik. Qeyd edək ki, o dövrdə dərvişlər başlarına çalma qoyurdular. Və bununla sanki bir mistik qüvvəyə sahib olduqlarını nümayiş etdirirdilər. Ehtimal ki, çalmaşəkilli dəbilqələri istifadə edən döyüşçü də dini simvolikanı nümayiş etdirir və mistik qüvvəyə malik olduğunu bildirmək istəyirdi. XIV əsrdə meydana gəlmiş bu cür dəbilqələr əsasən ağır süvari dəstələr üçün nəzərdə tutulmuşdu. Bu dəbilqə, heç şübhəsiz ki, XV əsrdə İranı (Azərbaycanı - N.S.) və Şərqi Anadolunu idarə etmiş Ağqoyunlu nəslinə (Bayanurlu nəslinə - S.N.) aiddir. Üzərində yazılan yazılar qızıl və gümüşlə yazılmışdır. Dəbilqənin üzərində Osmanlıların İstanbuldakı cəbbəxanasının möhürü vardır (3).





Çalmaşəkilli dəbilqə
Tarix: XV əsrin sonları
Mədəniyyət: İran (əslində Azərbaycan-türk mədəniyyəti - S.N.)
Tərkibi: polad, gümüş, qızıl
Təsnifat: dəbilqə
Ölçüləri: N. 13 1/8 düym (33.34 sm). Diametri 9 1/2 düym (24.13 sm); Çəkisi. 2 funt 11 unsiya (1219 qram).
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.209
Artikul: üzərində İstanbul cəbbəxanasının möhürü vardır (3).

Üzərində ərəbcə "xan, müdrik" sözləri yazılmışdır. Sözlərin kimə ünvanlandığı məlum deyildir. Bu cür yazıya bəzi çalmaşəkilli dəbilqələrdə də rast gəlinir (3).





**Lövhələri olan zirehli geyim**
Tarix: XV əsrin sonu-XVI əsrin əvvəlləri
Coğrafiya: İstanbul
Mədəniyyət: Türkiyə, İstanbul (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: polad, gümüş, dəmir
Təsnifat: Lövhəli zirehli geyim
Kredit xətti: Corc S.Stoun, 1935
Avadanlıq №-si: 36.25.54 (1).



Üzərindəki yazılar qızıl və gümüşlə yazılmışdır. Yuxarı ətrafda "Ali sultanlara Allahın salamı olsun", aşağı ətrafda isə "Bizim ali sultana Allahın salamı olsun" yazılıb. Qeyd edək ki, muzey tərəfindən bir çox eksponatlar üzərindəki yazıların tərcüməsi zamanı çoxlu yanlışlıqlara yol verilib. Muzeydə eksponat haqqında məlumat verilən lövhədə yazının tərcüməsi



bu cür göstərilib: "Sultanımızın salamı olsun Allaha". Əlbəttə ki, bu cür yazının yazılması məntiqsizdir. Müsəlman dövlətlərində heç bir zaman sultan Allahdan yüksək tutulmamışdır. Sadəcə muzey tərəfindən aparılmış bu cür tərcümə qüsurlarının aradan qaldırılması zəruridir. Dəbilqənin üzərində Osmanlı dövlətinin İstanbuldakı cəbbəxanasının möhürü var (3).



**Çalmaşəkilli dəbilqə**
Tarix: XV əsrin sonları
Mədəniyyət: İran (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: polad, gümüş, qızıl
Ölçüləri: N.11 11/16 (29.7 sm). Diametri 9 1/4 düym (23.5 sm); Çəkisi 3 funt 0.7 unsiya (1380.6 qram).
Təsnifat: dəbilqə
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.462
Artikul: üzərində İstanbul cəbbəxanasının möhürü vardır (3).

**Çalmaşəkilli dəbilqə**
Tarix: XV əsrin sonları
Mədəniyyət: İran (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: polad, gümüş, qızıl
Ölçüləri: 12 1/4 düym (31.1 sm). Diametri 9 1/2 düym (24.1 sm); Çəkisi 2 funt 5.1 unsiya (1051.8 qram)
Təsnifat: dəbilqə
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.214
Artikul: üzərində İstanbul cəbbəxanasının möhürü vardır (3)







**Çalmaşəkilli dəbilqə**
Tarix: XV əsrin sonları
Coğrafiya: İstanbul
Mədəniyyət: Türkiyə, İstanbul, türkman üslubunda (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: dəmir, gümüş, qızıl
Ölçüləri: N. 11 7/8 düym (30.2 sm).
Diametri 22.9 sm; Çəkisi 3 funt 12.9 unsiya (1272.9 qram)
Təsnifat: dəbilqə
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.210
Artikul: üzərində İstanbul cəbbəxanasının möhürü vardır (3).



Çalmaşəkilli dəbilqə
Tarix: XIV əsrin sonu-XV əsrin I rübü
Coğrafiya: İstanbul şəhəri.
Mədəniyyət: Türkiyə, ehtimal ki, İstanbul, türkman üslubunda (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: dəmir, gümüş, qızıl, mis
Ölçüləri: Q. 28.5 sm. W. 8 7/8 düym (22.53 sm);
Çəkisi: 2 funt 6 unsiya (1092 qram)
Təsnifat: dəbilqə
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.460
Artikul: Üzərində "Konstantinopol cəbbəxanası" yazılıb (bu qeyd muzeyin özünə də aid ola bilər – S.N) (1).



Çalmaşəkilli dəbilqə
Tarix: XV əsr
Coğrafiya: İstanbul şəhəri.
Mədəniyyət: Qərbi İran, türkman üslubunda (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: polad, dəmir, gümüş, mis
Ölçüləri: N. 29.2 sm; çəkisi 3 funt 5 unsiya (1496 qram)
Təsnifat: dəbilqə
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.461 (3).





Çalmaşəkilli dəbilqə
Tarix: XV əsr
Mədəniyyət: Türkiyə, türkman üslubunda (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: dəmir, gümüş, polad
Ölçüləri: N. Burun hissə ilə birlikdə 36.8 sm; N burun hissəsiz 32.7 sm. VT 26 sm.
Diametr 28.3 sm;
Çəkisi 3 funt 12.5 unsiya (1715.1 qram)
Təsnifat: dəbilqə
Kredit xətti: Rocers Fondu, 1904
Avadanlıq №-si: 04.3.457
Artikul: üzərində İstanbul cəbbəxanasının möhürü vardır (3).







Çalmaşəkilli dəbilqə
Tarix: XV əsr
Mədəniyyət: Türkiyə və ya İran, türkman üslubunda (əslində Azərbaycan-türk mədəniyyəti – S.N.)
Tərkibi: dəmir, gümüş, qızıl, mis
Ölçüləri: N. 31.1 sm. Diametr 24.1 sm;
Çəkisi 2 funt 9 unsiya (1161 qram)
Təsnifat: dəbilqə
Kredit xətti: Corc K. Kamen 1935
Avandalıq nömrəsi: 36.25.109 (3).



Dəbilqələrin hər birinin üzərinə diqqətlə baxsaq, burada oğuzların Qayı boyunun damğasını görmək mümkündür. Bu damğa "I Y I" formasındadır (3).



Ümid edirik ki, milli mədəniyyət tariximizi təmsil edən bu və ya digər sənət nümunələrini respublikamızın muzeylərində görə biləcəyik.

**Mənbələr:**


1. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2014, 380 s.
2. T.Nəcəfli. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı: "Çaşıoğlu", 2012, 604 s.
3. Metropolitan İncəsənət muzeyi — metmuseum.org


*Sadullah Nuriev*

***Artifacts of Agh Goyunlu in the Metropolitan Museum of Art***

***Key words:*** *Azerbaijan, Agh Goyunlu, Bayandurlu, culture, Metropolitan*

***Summary***

This article contains artifacts of the Azerbaijani culture that are preserved at the Metropolitan Museum of Art, New York. Mis-labeling of some artifacts made by the museum are revised throughout the article. Cultural art pieces used in the article belong to Bayandurlu dynasty, established and ruled by Hasan shah (1468-1501). During the ruling period of Bayandurlu dynasty, Sunni denomination was adopted by the state. The article features historical pieces that are delicately crafted. The fine design, rich pattern and colors of the each handcraft reflects rareness of Azerbaijani culture..

*Садулла Нуриев*

***Образцы исскуств Аккоюнлу в Нью-Йоркском Метрополитен-Музее***

***Ключевые слова:*** *Азербайджан, Аккоюнлу, Баяндурлу, культура, Метрополитен*

***Резюме***

В этом статье рассказывается об образцах азербайджанского искусства, хранящихся в нью-йоркском Метрополитен музее. Эти образцы относятся к династии Баяндурлы, основанной Гасан шахом (1468-1501 гг.)

Экспонаты, о которых рассказывается в статье, отличаются высоким художественным оформлением, богатством узоров и цветов. Это еще раз доказывает их уникальность и непревзойденное мастерство ремесленников Азербайджана.